**UOT 75.**

**Fidan Cəfərova**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Magistrant**
**E-mail: fidanceferova01@gmail.com**

# SƏMƏDAĞA CƏFƏROVUN YARADICILIĞINDA CAVİD MÖVZUSU

**Xülasə:** Cavid əsərlərinin ümumiləşdirilmiş kompozisiyalarından ibarət olan bu böyük layihədə bütün obrazların jestlər və üz mimikaları ilə ötürdüyü hisslər əsərin uğurlu olduğunu göstərir. Heç bir simada xoş əhval-ruhiyyə, sevinc, xoşbəxtlik hissini görə bilmirik. Əsərin əvvəlindən sonuna qədər süjetlər və obrazların slindrvari ağır elementlərlə izlənməsi burada dramatikliyin ön planda olmasını göstərir.

Səmədağa Cəfərovun Hüseyn Cavidin əsərlərinə həsr etdiyi "Keramika qamması" silsiləsinin natamamlığının həllinə ümid edirik. Əsər Cavid irsinin əbədiləşməsinə, tədqiqinə ciddi töhfələr verməyə qadirdir.

**Açar sözlər:** Hüseyn Cavid, Səmədağa Cəfərov, rəngkarlıq, qrafika, obraz

Bəşəriyyətin unudulmaz şəxsiyyətlərindən biri olan Azərbaycan şairi, yazıçı və dramaturq Hüseyn Cavid Azərbaycan ədəbiyyatında romantizm cərəyanının əsas nümayəndəsi, romantik şeir və mənzum faciə janrının banisi hesab edilir. "Şərqin Şekspiri kimi adlandırılan Hüseyn Cavidin Azərbaycan mədəniyyətində yeri və əhəmiyyəti mədəni irsinin mühüm aspektidir". (1)

Həyat faciəsi, yaradıcılıq yolu və fərdi üslubu ilə mədəniyyətimizdə daim aktual olan Cavid Əfəndi əbədi mövzuları, personajları ilə ümumbəşəri dəyərləri öz əsərlərində əks etdirmişdir. Məhz bu baxımdan Cavid və onun dünyası (öz obrazı, əsərləri və onların təsviri interpretasiyaları) təsviri sənətimizin hər bir inkişaf mərhələsində dolğun əks olunmuşdur. Bu bədii proses ədibin yaşayıb-yaratdığı dövrdən başlayaraq müasir mərhələdə davam edir.

Tarixi-ictimai vəziyyətdən asılı olaraq Cavid obrazına müraciət özünəməxsus xüsusiyyətlərə malikdir. Eyni zamanda spesifik cəhətlər onun obrazının tətbiq olunduğu sahələrdən də asılıdır.

Hüseyn Cavid obrazına aktiv təsviri müraciət 1960-cı illərdən başlayır. Sovet İttifaqında siyasi mühitin ümumi mülayimləşmə, Stalin repressiyalarının reabilitasiya mərhələsində Cavid və onunla bağlı mədəni mətnlərin yenidən dəyərləndirilməsi baş verir. Kitab qrafikasında bu proses xüsusi yer alır. Eyni zamanda rəngkarlıq əsərlərində fərdi münasibət vurğulanır (Zivərbəy Əhmədbəyov, Mikayıl Abdullayev, Oktay Sadıxzadə, Böyükağa Mirzəzadə, Elman Cəfərov, Arif Hüseynov, Baba Əliyev, Elmira Şahtaxtinskaya, Nəcəfqulu İsmayılov, Telman

Abdinov, Kamil Nəcəfzadə, Hüseyn Əliyev, Əli Verdiyev, Aydın Rəcəbov, Abbas Məmmədov, Hüseynqulu Əliyev, Məmməd Şirzadov, Məmmədəli İsmayılov, Ənvər Əliyev, Altay Hacıyev, Mir Cəlil Seyidov, Vaqif Ucatay, Elxan Tahirov, Nurhüseyn Mahmudov, Yusif Hüseynov, Abazər Qardaşbəyov, Sabir Qədimov, Ülviyyə Həmzəyeva, Qədirulla Bağırov, Əli Səfərli). Plastik sənətlərlə yanaşı Cavid obrazı dekorativ-tətbiqi sənətlərdə də ciddi yer alır. Burada Kamil Əliyevin xalça üzərində yaratdığı portreti vurğulamaq zəruridir.

Hüseyn Cavid mövzularına öz rəsm əsərlərində müraciət edən Azərbaycan rəssamı Səmədağa Cəfərov rəngkarlıq və qrafika ilə yanaşı, milli keramika sənətinin görkəmli nümayəndələrindəndir. 1970-ci illərdə bədii fəaliyyətə başlayan rəssam dövrünün ənənəvi bədii təhsilini ilk dəfə Ə.Əzimzadə adına Rəssamlıq məktəbində, 1973-cü ildə Leninqradda V.İ.Muxina adına Ali Rəssamlıq məktəbində keramika və şüşə ixtisası üzrə almışdır. Daha sonra təhsilini iki il müddətində qrafika üzrə davam etdirmişdir.

Bu illərdə milli təsviri sənətimizdə formalaşan yeniliklər rəssamın yaradıcılığında əks olunur. S.Cəfərov şərti olaraq "Abşeron məktəbi" adlanan bədii istiqamətin formal-üslubi xüsusiyyətlərinə malikdir. Rəngkarlıq və qrafika əsərlərində ümumiləşdirilmiş formalar, məkan və həcm həllində geniş ümumiləşdirmələrə üstünlük verən Cəfərov, fərdi üslubunu sahələrarası spesifikada müəyyən edir. Bu baxımdan onun fərqli texnikalarda işlənən rəngkarlıq əsərləri, rəsm nümunələri, eskizləri, qravürləri həcmli sənət formatına rahatlıqla transformasiya olunur.

Cavid mövzusuna müraciət 1979-cu ilə aiddir. Həmin illərdə yaradıcılıq fəaliyyətinə başlayan S.Cəfərov dəbdə olan modernizm cərəyanlarında təsirini hiss etdirir. "Əsərlərində P.Pikassonun və J.Brakın kubizmindən, P.Klinin konstruktivizmindən, X.Mironun və V.Kandiskinin abstraksionizmindən, S.Dalinin sürrealizmindən təsirlənən, bu istiqamətləri yaradıclığına təməl seçən rəssam nəticədə özünə xas və təkrarolunmaz forma və biçimdə tablolar yaratmışdır. Amma buna rəğmən rəssamın əsərlərində millilik bu və ya digər şəkildə, ya kolarit kodları ilə, ya da başqa ifadə vasitələri ilə önə çıxır" (2. 59).

"Rəssam Cavid yaradıcılığı ilə uşaqlıqdan tanış idi. S.Cəfərov bir əsəri yaratmaq üçün onu dərindən öyrənməyin vacib olduğunu, Azərbaycanın tarixinə keçən Cavid mövzusunu, onun əsərlərini və obrazlarını yaratmağın heç də asan olmadığını vurğulayır. O, daha çox Cavidin əsərlərinin əsasında qoyulmuş teatr tamaşalarının obrazlarından bəhrələnib. Rəssam bunlardan A.M.Şərifzadəni, R.Təhmasibi, R.Darablını xüsusilə qeyd edir. Nəticədə, 1979-cu ildə yaradılan "Keramika qamması" layihəsi meydana gəlir" (rəssamla müsahibə. F.C.).



Burada "İblis" obrazını süjetin mərkəzində, sanki yarasayabənzər qanadlara və ayaqlara, başında olan buynuzlarla təsvir edilmiş şəkildə görürük. Layihənin kontekstində "İblis" pyesi üçün ayrılan hissə bütövlükdə bu böyük qanadlar üzərində qurulur. Burada rəssam İblisin tələsinə düşmüş bütün obrazları bu qanadlar üzərində bir kompozisiya halına salaraq birləşdirib. Qanadlardakı bu simalarda məyusluq, qəmginlik və peşmançılıq hissini rəssam əsərin izləyicisinə çatdırmağı böyük ustalıqla bacarıb. Pis əməlləri, şeytanlığı özündə ümumiləşdirən bu obrazın digərlərindən daha böyük və daha fərqli işlənməsinə səbəb iblisin, şeytanın bütün bəşəriyyət üçün böyük bir bəla olması, eləcə də H.Cavidin əsərləri arasında bu obrazın "əbədi" olması kimi dəyərləndirmək olar. Bununla yanaşı əsərin yuxarı sol tərəfində təsvir edilmiş sanki alovlar içərisində olan iki mələk qanadlı simanın qarşı qarşıya dayanmasını mələklərin də iblisləşə biləcəyi kimi qəbul edə bilərik.





"Səmədağa Cəfərov əsərində "İblis"i süjet xəttinin əsası kimi vurğulayaraq H.Cavidin digər əsər obrazlarına da müraciət edir. "Topal Teymur", "Səyavuş", "Şeyx Sənan", "Xəyyam", "Knyaz"a da fərqli yanaşması ilə rəssam öz peşəkarlığını bir daha sübut edir. Əsəri incələyərkən əsas obrazlara xüsusi yanaşmasını görürük. Cavid "Topal Teymur" əsərində "Qardaş qardaş qanı içiyor. İştə siyasət və rəyasət bəlası!" deyərək savaşa olan münasibətini ifadə etdiyini, məhz bu cümlələrdən təsirləndiyini deyən Səmədağa Cəfərov öz layihəsində sanki müharibə, düşmənçilik obrazları ilə bu əsərə aid eskizlərə həyat verdiyini qeyd edir" (rəssamla müsahibə. F.C.). "Topal Teymur" müxtəlif süjetlər arasında daha



kəskin xətlər, ştrixlərlə işlənməsi ilə fərqlənir.

"Şeyx Sənan" əsərindən götürülmüş personajların hərəkət və jestləri əsərdəki obrazların bir biri ilə ünsiyyətini əks etdirir. Quruluş baxımından möhtəşəm kompozisiyanın həllini, əsərdə canlandırılmış bu süjetin rənglərin digərlərinə nisbətdə daha isti tonlarda təsvirini görürük. Bu rəng tonlarını Sənan və Xumarın bir-birlərinə olan məhəbbəti kimi dəyərləndirə bilərik. Əsas obrazlar mərkəzdə birlikdə təsvir edilsə də burada Sənanın bütün baxışları, əllərinin Xumara doğru istiqamətlənib onu möhkəm tutması ilə ona təslim, onun eşqinə görə hər şeyə hazır olmasını, Xumarın isə üzünün Sənana tərəf olmaması onların bu həyatda birlikdə ola bilmədiklərinin göstəricisi kimi qəbul edə bilərik. Rəssamın Sənanın başı üzərində təsvir etdiyi mələyin ondan üz çevirməsini papasın "içiniz bu şərabı öyleyse" (3) dedikdə Sənanın şərabı içməsi və "pək gözəl Şeyxim al, al şu xaçı da as" (3) sözlərindən sonra xaçı asması dininə xəyanət etməsi kimi göstərilir".







Məhz burada biz Sənanın da İblisə yenildiyini görürük. Platonun öz gürcü-xristian qızını bir müsəlmana yar etmək istəməməsini rəssam kompozisiyanın Sənan və Xumardan sol tərəfdə narazı simalı obraz kimi təsvir edib.

Dramaturqun "Səyavuş" əsərinin təsvirini kağız üzərində bir tamaşa səhnəsi kimi göstərən rəssam burada "Səyavuşun analığının ona vurulmasını daha sonra bunu öyrənən atasının onların günahsızlıqlarının sübutu üçün ilk olaraq Südabənin atəşdən keçmə göstərişini verməsini" (4) süjetin sağ tərəfində ayrılmış bölmədə digər hissələrdən qaranlıq, tünd rəng tonları ilə işləməsi bu səhnəni daha da fərqləndirib. Bu süjetdə "Kavusun Səyavuşu İran-Turan qarşıdumasının baş verməsi səbəbindən müharibəyə göndərməsi, sol tərəfdə isə Südabənin buna etiraz etmə səhnəsi" (4) təsvir olunub. Səhnə tamaşasını xatırladan bu məqamlar bölmələrə ayrılmış şəkildə göstərilmişdir.

S.Cəfərov ədibin əsərləri arasında daha çox müasirliyə yaxın olan "Knyaz" dramına da böyük yer ayırmışdır. Rəssamın çəkdiyi eskizlərdə "Knyaz"a bədii münasibət özünəməxsus şəkildə duyulur. Burada Knyaz döyüş kostyumunda, dağınıq saçlı, üzərində xəncəri ilə təsvir olunmuşdur. Yanındakı xanım isə saçları yığılmış, uzun, geniş ətəkli və yaxası açıq əlbisə geyinmişdir. Sadə kəndli olan Salomonu da əsərdə təsvir edən rəssam onunla öz hisslərini qarşı tərəfə ötürməyi bacarır. Onun başında papaq, əynində isə bütün bədənini örtən geyim vardır. Sütunvari ağır formalar içərisində təsvir edilmiş obrazlarla rəssam əsərə yaddaqalan əbədi və bədii görüntü vermişdir.

"Səmədağa Cəfərov H.Cavidin "Xəyyam" dramında mövcud olan fikirləri bəşəriyyətə çatdırmaq, onun eskiz həllini tapmaq üçün çox axtarışlar etmişdir" (rəssamla müsahibə. F.C.). Onun ağır həcmlərdən istifadə etməsi əsərin bir layihə kimi keramika üzərində möhtəşəm görüntü yaradacağını təsdiqləyir.

"Nəzərdə tutulan ümumi ölçüsü 5 m-dən böyük olan layihədə Ədibin şeirlərindən ilhamlanaraq yaratdığı hissələr də S.Cəfərov üslubuna xas olaraq işıq-kölgə effektləri olmadan yaradılmışdır" (rəssamla müsahibə. F.C.).

Daha sonralar əsər reallaşmasa da bu gün S.Cəfərovun yaradıcılığında mühüm yerə malikdir. Süjet baxımından Cəfərov Cavidin müxtəlif əsərlərinin kulminasiya məqamlarını təsvir edir. Ölçüsü 20x110 sm2 olan eskizlərin ümumi koloristik həllində rəssam sadə qələm, oxra, qəhvəyi tonları məharətlə istifadə etmişdir.

**Ədəbiyyat siyahısı:**

1. "Şərqin Şekspiri" adlı tədbir. 1 noyabr 2017. Medeniyyet.az
2. https://medeniyyet.az/page/news/41338/Serqin-Sekspiri-adli-tedbir-kecirilib.html
3. "Elm, Mədəniyyət və İncəsənətin qarşılıqlı əlaqəsi və müasir cəmiyyətin inkişafında rolu". III Respublika elmi-nəzəri konfransın materialları. Günel Seyidəhmədli. "Səmədağa Cəfərovun rəngkarlıq əsərlərində modernistik həll". Bakı-2019. Səh. 59
4. Əkbərov, Z. Hüseyn Cavidin "Şeyx Sənan" faciəsi. Bakı: Elm. 1977.
5. Əbdülrza Balazadə (araşdırmaçı). Hüseyn Cavidin "Səyavuş"u. 28 oktyabr 2014.
6. https://www.xalqcebhesi.az/news/culture/5489.html

**Фидан Джафарова**

**Тема Джавида в творчестве Самедаги Джафарова**

**Резюме**: В этом замечательном проекте, который состоит из обобщенных композиций произведений Джавида, чувства, передаваемые всеми персонажами посредством жестов и мимики, указывают на успех работы. Ни на одном лице мы не видим хорошего настроения, радости и счастья. Тот факт, что от начала до конца работы за сюжетами и образами следуют тяжелые цилиндрические элементы, говорит о том, что здесь на первый план выходит драма.

Надеемся, что цикл Самадаги Джафарова "Керамическая гамма", посвященный творчеству Гусейна Джавида, будет завершен. Работа способна внести значительный вклад в увековечение и изучение наследия Джавида.

**Ключевые слова:** Хусейн Джавид; Самедага Джафаров; рисование; графический; изображение

**Fidan Jafarova**

**Javid theme in the creativity of Samedaga Jafarov**

**Summary:** In this great project, which consists of generalized compositions of Javid's works, the feelings conveyed by all the characters through gestures and facial expressions show that the work is successful. We do not see a good mood, joy and happiness in any face. The fact that from the beginning to the end of the work the subjects and images are followed by

cylindrical heavy elements shows that drama is at the forefront here.

We hope that Samadaga Jafarov's "Ceramic Gamma" series dedicated to the works of Huseyn Javid will be completed. The work is able to make a significant contribution to the perpetuation and study of Javid's legacy.

**Key words**: Hussein Javid; Samadagha Jafarov; painting; graphic; image

**Məqalənin redaksiyaya daxil olma tarixi: 24. 10. 2021**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: sənətşünaslıq üzə fəlsəfə doktoru, dosent Aslan Xəlilov**